# ŞAİRİN İLHAM QAYNAĞI - DAĞLAR



*Şəddat CƏFƏROV,*
*fəlsəfə doktoru*

"Kredo" qəzetinin növbəti sayını almışam, şənbə günüdür. Bağda bəzi xırda, gücüm çatan görülməli işlərim var. Amma səhər çayından sonra qəzetin özümlə gətirdiyim növbəti (№18(1274) 22 may, 2025-ci il) sayını vərəqləyirəm. Açığı qəlbim qürurla döyünür. Redaksiya heyətinin üzvü olduğum bir qəzetin belə yüksək səviyyədə nəşr olunmağı, Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri ilə bağlı materialların dərci məndə belə bir inam yaradır ki, insan resurslarının, bütövlükdə kapital istəklərinə tabe olduğu bir dövrdə mənəvi zənginliyimizə xidmət edəcək yazıların da kütləvi oxucuya çatdırılması üçün fədakarlıq göstərənlər var.

Qəzetin səhifələrində Təranə Cavadovanın "Klassik Şərq ədəbiyyatı dünya elmində" adlı elmi qeydləri, Professor İslam Qəriblinin görkəmli alim Nizami Məmmədov - Tağısoyun 75 illik yubileyi ilə bağlı həyat və yaradıcılığına həsr olunmuş portret-essesi ("Elm və maarif fədaisi"), şair-publisist Əbülfət Mədətoğlunun "Aşiqliyin işığında" kitabı haqqında düşüncələri, "doktor Hüseyn Şərqi Dərəcək - Soytürkün "Qurucu atalarımızdan biri - Ağa Məhəmməd Şah Qacar" publisistik qeydləri, professor Təyyar Salamoğlunun "Yanan ürəyin türküləri" adlı ədəbi-tənqidi yazısı, Zülfiyyə Əsgərzadənin vətəndaşlıq mövqeyindən ədəbi təhlilləri əks etdirən ədəbi düşüncələri, ən başlıcası, dostum - qardaşım Əli Rza Xələflinin akademik İsa Həbibbəylinin elmi-ədəbi irsi filologiya elmləri doktoru Gülxani Pənahın "Fundamental elmi baxış və konseptual yanaşması"nda adlı ədəbi-publisistik, şərqşünas Sənan İbrahimovun yazıları, qəzetimizin redaksiya heyətinin ən gənc üzvü Sevindik Nəsiboğlunun, Tahirə Əliyevanın II Cahan müharibəsi mövzusundakı yazılarının hər biri redaksiya əməkdaşlarının vətəndaşlıq mövqeyinə aydınlıq gətirən faktlar kimi diqqətimi cəlb etdi. Əlbəttə, mənim özümün də "Şair sözü yalan deyil" adlı ədəbi-publisist qeydlərim qəzetin həmin sayında yer almışdır.

Mən çox istedadlı, ömrünün kamillik çağlarını yaşayan şair Rafiq Musanın "Axtarıram özümü" poemasından söhbət açmışdır. Həmin qeydlərdə göstərmişdim ki, o, sanki mənim həyatımı yazıb. Heç bir müəllifə məcbur etmək olmur ki, sən filan mövzuda yaz, filan mövzuda yazma. Bu, absurddur.

Açığı R.Musanın yaradıcılığı ona görə mənim diqqətimi cəlb etdi ki, onun poetik təsvirlərində əvvəl qeyd etdiyim kimi, mən də öz həyatımı gördüm. Dostum Ə.R.Xələflinin R.Musa haqqındakı düşüncələri də məni bu şair haqqında danışmaq üçün ilhamlandırdı. İndi R.Musanın "Kredo" qəzetinin haqqında söhbət açdığım sayında "Yolum dağlara düşdü" adlı kiçik, çox maraqlı süjeti olan bir əsəri də məni özünə çəkdi. Açığı, hər bir şairin sözü gərək oxucunu özünə cəlb etsin. Mən də R.Musanın "Yolum dağlara düşdü" miniatür poema təriqində yazılmış xatirəlik duyğularla qələmə alınmış poetik essesinə münasibət bildirməyi özümə borc bildim.

"Yolum dağlara düşdü" - müəllif nə gözəl sərlövhə verib poetik əsərinə. Əsər boyu biz müəllifin dağlara ikili münasibətini hiss edirik. Bunu hər bir diqqətli oxucu da duya bilər. Müəllif Füzulidəngəlmə "dağlar" motivinə söykənir. Dağların çox mənalılıq mahiyyətini də poetik təsvirlərində üzə çıxarır. Birinci növbədə özünün sinəsindəki dağları yada salır, bir də səfər etdiyi dağlarla bağlı xatirələrini dilə gətirir:

Həsrətin kəsəri qılıncdan iti,
Füzulisayağı dözmədim dağa.
Ötən günlərimin tutub əlindən,
Tapdanan cığırla tələsdim dağa.

Şamaxı dağları, havaya bir bax!
Vurğunam bu yerin səhər çağına.
İlk görüş, son görüş yadıma düşdü,
Düşdüm həsrətimin qaranlığına.

Dağların dumanı başımın üstə,
Baxdım dərələrin dərinliyinə.
Elə bil, kim isə səslədi məni
Çinar kölgəsinin sərinliyinə.

Sənli xatirələr xəyallarımda
Buludlarsayağı bölük-bölükdü.
Biz gəzən yerlərdə gül-çiçək bitib,
Hər çiçək ləçəyi könlümə yükdü.

Gəzirəm bildiyin bərəni-bəndi,
Dolaylar keçirəm mən arsız-arsız.
Soruşdum mən səni güldən-çiçəkdən,
Sən məni anmadın, ay etibarsız!

Müəllif getdiyi, gəzdiyi yerləri poetik istedadının gücünə təkcə təsvir etmir, həm də istedadı ilə hər məqama xüsusi məna verir. Onun poetik təsvirlərində bulaq başının, çəmənlərin, qürurlu dağların ikimənalı mənası var. Sevincli duyğulu anlar xatirələrində canlandıqca düşüncələrinin sanki çəmənlərini seyr edir. Halbuki qonaq getdiyi təbiətin çəmənlərindən təsirlənərək bunları yazır. Maraqlıdır ki, müəllif həmin məqamlarda öz eşqinin, sevgisinin ruhunda canlanan duyğuların üzə tutur. Və yadına salır ki, bir vaxt könül verib sevdiyi idealı ilə bulaq başında necə güzgülənib, necə o güzgülənmə məqamında qəlbində ümid çırağı yandırıb, öz gələcəyini necə xoşbəxt görüb.

Qəribədir ki, müəllif gül açmış lalənin də bağrındakı qara xalı öz həyatının, taleyinin qara xalına timsal tutur.

Dağlarda sanki müəllif öz istəklərinin kamına çatır:

Biganə qalmadım bulaq başına,
Qərar tutammadım şehli çəməndə.
Şirin xatirələr kövrəltdi məni,
Bu yerdə düşmüşdü bənövşə bəndə.

Qəmli dayanmışdı salxım söyüdlər,
Gözləri nəmliydi gülün-çiçəyin.
Çeşməni görəndə yadıma düşdü,
Ovcunu doldurub su içirtməyin.
İçimdə bir eşqin ağrı-acısı,
Çölümdə, elə bil, toydu-büsatdı.
Dağ çayı hiss etdi acılarımı,
Özünü qayadan dərəyə atdı.

Çeşməni görəndə yadıma düşdü,
Çeşmənin gözündə güzgülənməyin.
Bir ümid çırağı yandırmaq üçün
Pis olmaz bu yerə gəlib dəyməyin.

Gör necə yanıbdı lalənin bağrı,
Bir anlıq duruxdum, kövrəldim yaman.
Vəfasız deyimmi qarlı dağlara?
Bu yerdə çox şeyi dəyişib zaman.

Maraqlıdır ki, müəllif bu yerləri birinci dəfə deyil ki, görür. Əslində, bu yerlər onun varlığında sakin olan - özü də əbədi sakin olan xatirələrinin ilkin beşiyidir. Müəllif bu yerləri öz idealı ilə birgə gəzib. Sevgisini, məhəbbətini, varlığını uca tutan aşiqliyi ilə onu valeh edən bir gözəlin yaddaşındakı obrazı ilə təzədən yaşayır.

Yaşamlar həmişə gözəldir, əlbəttə, real həyata əsaslansaq. Mən bir daha deyirəm ki, R.Musanın poetik yaradıcılığı ona görə dəyrlidir ki, o, real həyati yaşantılara əsaslanır. Yəni onun varlığında sözün əsl qaynağı var - həyat qaynağı. İndi deyirəm, sözə biganə olan hər bir kəs Rafiqin bü düşüncələrinin üstündən sükutla keçsin, əgər bacarsa:

Sevgiylə, sevinclə bu yerə gəldim,
Bəlkə də, dağlarla bu son görüşdü.
Həsrətin oduna yanmayım deyə
Üstümə buludun kölgəsi düşdü.

Lalənin alovu yandırdı məni,
Dəmirçi körüyü kimidir sinəm.
Dağlar yel gətirdi, buludlar yağış,
Qoymayır alışam, kösövə dönəm.

Bu duman tanışdı, bu çən tanışdı,
Deyəsən, olmuşam bu yerdə öncə.
Kol basmış, yiyəsiz qalan cığırlar
Dərdini unutdu məni görüncə.

Hərdənbir bu yerə yolun düşərsə,
Köksünü ötürmə dağ yamacında.
Sən yeni cığırlar, izlər görəcən,
İtəcən cığırın yolayrıcında.

Gedəndə demədin gedəcəyini,
Gözlərim doyunca baxaydı sənə.
Özü-öz içində qırılan mənəm,
Qarşında əyilmək ar gəlir mənə!

Açığı hər bir adamın taleyində sevgi hissləri, məhəbbət yaşantıları kifayət qədər iz buraxır. R.Musa kimi şairlərin yaddaşında sevgi hissləri daha dərin iz buraxır. O, bəlkə də ömrünün ən gözəl çağlarını, ən şairanə duyğularını sevgi əhatəsində yaşayıb. Elə ona görə də onun sevgi-məhəbbət mövzusundakı poetik təsvirləri oxuculara bu qədər sirayətedici gücdə olur.

İnsafən, insan övladı üçün həyatının ən şirin məqamları elə gəncliklə bağlıdır. Sevgi duyğularını yaşadığı çağlarla səsləşən məqamlardır. R.Musa da bu sırada istisna deyil. Elə ona görə də biz onun ritorik suallarındakı (səni sevmirəmmi istəyin qədər) motivlərə xüsusi diqqət yetiririk. Bir sözlə, o, ürəyi ilə dilləşir, yaddaşındakı sevgilisi ilə üzbəüz dayananda:

Gedişin ömrünə qışı gətirdi,
Qara saçlarıma sən salmısan dən.
Sevəndə mərdanə sevmişdim səni,
Qorxuram önündə əyilməyimdən.

Səni sevmirəmmi istəyin qədər?
İstəyin nə idi, anlayammadım.
Bilirdim qəlbimin günahı çoxdu,
Vaxt tapıb mən onu danlayammadım.

Demişdin, mən səni unutmayacam.
Dağlarda yel oldu verdiyin andın.
Getdin, illərimi aparıb getin,
Məni soraqlayıb heç axtarmadın.

Sevgini zor ilə yaşamaq olmur,
Bu da bir qismətdi, üzə gülmədi.
Sən mənim eşqimi sındırdın deyə,
Bəlkə də, dönməyə üzün gəlmədi.

Bir anlıq baxışın möhtacı idim,
Bəlkə, xoş olardı baxsaydım gendən!
Heyif ki, mən səni tapa bilərdim,
Çox qorxdum özümün itəcəyindən.

Əliboş qayıtdım mən bu səfərdən,
Dağlara qalxmağım mənə gəldi ar.
Ümidsiz, peşiman qayıdan zaman
Arxamca su səpdi əlçim buludlar.

Hər sözü hər kəsə söyləmək olmur,
Çoxları bu işdə yəqin naşıdı.
Qoy səhər açılsın, dağlara qalxam,
Yuxumu o özü yozsa yaxşıdı!



İndi düşünürəm, bu tipli şeirlərin müasir, süni intellektin artıq meydana gəldiyi bir zamanda nə kimi dəyəri var? Müəllifin hiss və duyğuları müasir insanın mənəvi mühitinə təsir edə biləcəkmi?

Açığı mənim cavabım aydındır. Çünki istəyir elm və texnika, süni intellekt hansı səviyyədə inkişaf edir etsin, canlı insanın hiss və duyğularını heç nə əvəz edə bilməz. Mən düşünürəm ki, gələcək zamanlarda da həyatı idarə edə biləcək qüvvə canlı insanın təfəkkürü olacaq.

R.Musa kimi şairlərin təbii hisslərə güvənən şeirləri canlı insanın həyatını insanlıq yönümündən hifz edəcək. O, insanı insan olmağa doğru çağırır. Şairin əsas məqsədi, məramı insanı insan olmağa çağırmaqdırsa, deməli, onun yaradıcılığı yer kürəsindəki insanla bağlı həyatın mühafizəsinə xidmət edir.

İndi tez-tez deyirlər ki, ekoloji mühit pozulub. İnsanların mənəvi ekologiyasında da aşınmanın getməsinə dair fikirlər səslənir. Açığı, etiraf edirəm, bu iddialarda doğruluq az deyil. Amma düşünürəm ki, insanın mənəvi mühitini saflaşdıran poetik sevgi tərənnümü insanın insan olmağını qorumağa xidmət edir.

Mən Rafiq Musanın yaradıcılığını "Kredo" qəzetindən ardıcıl izləyirəm. Düşünürəm ki, bu cür şairlərimiz, əslində elə insanlığı qorumağa xidmət edir.

***2025***